**Kafedranın təşkilatçılığı ilə 2023/2024-cü tədris ilində keçirilmiş elmi konfranslar, seminarlar, simpoziumlar, dəyirmi masalar və tədbirlər haqqında.**

**1. Anım Gününə həsr olunan mühazirə keçirilib.**

2023-cü ilin sentyabrın 27-də Mingəçevir Dövlət Universitetinin (MDU) Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə “27 Sentyabr – Anım Günü”nə həsr olunan “27 sentyabr: həqiqət məqamına ucaldığımız gün” mövzusunda mühazirə keçirilib. Universitetin kiçik akt zalında keçirilən mühazirədə MDU-nun bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib. Mühazirədə giriş sözü ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova, 44 günlük Vətən müharibəsini Azərbaycan tarixinin ən qürurlu və şanlı səhifələrindən olduğunu qeyd edib. Anım Günündə tarixi Zəfər yürüşünün əsas qəhrəmanları olan şəhidlərimizi dərin hörmət və ehtiramla yad etdiyimizi bildirən E.Cəfərova onların əziz xatirəsinin heç vaxt unudulmayacağını deyib. Tələbələrin vətənpərvərlik ruhunda yetişdirilməsinin və tarixi həqiqətlərin gənclərə aşılanmasının önəmini diqqətə çatdıran kafedra müdiri təşkil edilmiş mühazirənin əhəmiyyətini vurğulayıb. Sonra, Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov məruzə ilə çıxış edib. Məruzədə tarix boyu ermənilərin Azərbaycana qarşı əsassız torpaq iddiaları və təcavüzkarlıq siyasətlərindən, erməni terrorçuluğu və vandalizminin faciəvi nəticələrindən, 44 günlük Vətən müharibəsindən, tarixi Zəfərin qazanılmasını şərtləndirən əsas amillərdən, post-müharibə dövründə regionda yaranan yeni geosiyasi reallıqlardan, Böyük Qayıdış proqramından, Qarabağda 24 saatdan az bir müddətdə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam təmin olunmasından və digər məsələlərdən bəhs edilib.

**2. Mingəçevir Dövlət Universitetində Anım Günü qeyd edilib.**

Böyük Zəfərə gedən yolun başlanğıcı hesab edilən 2020-ci ilin 27 sentyabr tarixindən 3 il ötür. Həmin gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin yenilməz əsgər və zabitləri qəhrəmanlıq salnaməsini yazdılar. Qanları və canları bahasına torpaqlarımızı işğaldan azad edərək ölkəmizin ərazi bötüvlüyünü və tarixi ədaləti bərpa etdilər, qazandıqları şanlı Zəfərlə xalqımıza sonsuz qürur və sevinc hissləri yaşatdılar. Müstəqil və suveren ölkədə yaşadığımıza görə məhz belə vətənpərvər, igid və şücaətli Vətən övladlarına və onları yetişdirən valideynlərə borcluyuq. Milli qürur günümüz olan Anım Günündə torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəmanlarımızın dərin ehtiram və sonsuz minnətdarlıqla yad etmək üçün keçirilən konfransın proqramına uyğun olaraq MDU-nun Humanitar fənlər kafedrasının əməkdaşları Vüsalə Mövlayeva “Tariximizi və taleyimizi dəyişmiş Zəfər müjdəsi”, Leyla Babayeva “Zəfər yolumuz anım məqamı” mövzusunda məruzələrlə çıxış ediblər.

**3. Mingəçevirin 75 illiyi münasibətilə məktəblərdə silsilə tədbirlər təşkil edilib.**

Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Mingəçevir şəhərinin 75 illik yubileyinə həsr olunan “Mingəçevir şəhərinin dünəni və bu günü” mövzusunda silsiləvi tədbirlər təşkil olunub. Mingəçevir şəhər 1, 3, 11, 12 və 16 saylı tam orta məktəblərdə təşkil olunan mühazirələrdə Humanitar fənlər kafedrasının müəllimləri Vüsalə Mövlayeva və Aygün Qədirova məruzələrlə çıxış edərək Mingəçevirin qədim tarixi, təbii-coğrafi mövqeyi və sosial-iqtisadi inkişafı haqqında məlumat veriblər.

**4. Humanitar fənlər kafedrasının aliminin rəhbərliyi ilə “Nur şəhərinin dil yaddaşı” adlı dialektoloji lüğət hazırlanıb.**

Mingəçevir şəhərinin 75 illik yubileyi münasibətilə Humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafovun rəhbərliyi ilə “Nur şəhərinin dil

yaddaşı" adlı ("Elm və təhsil", 2023-cü il) dialektoloji lüğət tərtib edilib. Lüğətdəki sözlərin toplanmasında MDU-nun müəllimləri ilə yanaşı "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələr də yaxından iştirak ediblər. Onlar, Mingəçevirin yaşlı sakinləri ilə görüşüb, dialektoloji materiallardan, çap olunmuş lüğətlərdən, monoqrafiyalardan istifadə ediblər. Tələbələr ədəbi dilimizdə işlənməyən, lakin Mingəçevir şəhərinin şivəsində mühafizə olunan mindən artıq söz bazası formalaşdırıblar. Lüğətə AMEA Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Qüdsiyyə Qəmbərova və MDU-nun dosenti, filologiya elmləri doktoru Flora Namazova rəy veriblər. Lüğətdən MDU-nun "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasında təhsil alan tələbələr başda olmaqla, magistrantlar, müəllimlər, tədqiqatçılar və eləcə də geniş oxucu kütləsi faydalana bilər. Lüğət dərs və tədqiqat vəsaiti kimi istifadə edilə bilər. Qeyd edək ki, "Nur şəhərinin dil yaddaşı" (Mingəçevir şəhər şivəsinin qısa lüğəti, təkmilləşdirilmiş ikinci nəşr) AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunub.

**5. Zərdabda "Heydər Əliyev İli" çərçivəsində elmi seminar keçirilib.**

2023-cü il dekabrın 22-də "Heydər Əliyev İli" çərçivəsində Mingəçevir Dövlət Universiteti (MDU) ilə Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) arasında imzalanmış 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq Zərdabda "Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri" mövzusunda elmi seminar keçirilib. Əbədiyaşar lider Heydər Əliyevin zəngin irsi və keçdiyi həyat yolundan bəhs edən videoçarx izlənildikdən sonra elmi-seminarın məruzələri dinlənilib. Humanitar fənlər kafedrasının alimlərindən Asim Məmmədov, Namaz Manafov, Səadət Ağakişiyeva və Əməkdar müəllim Könül Aydın məruzələrlə çıxış ediblər. Məruzələrdə ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın qurulmasında, milli-mənəvi dəyərlərimizin, eləcə də Azərbaycan dilinin qorunmasında və zənginləşməsində, milli ədəbiyyatın inkişafında göstərdiyi misilsiz xidmətlərdən bəhs edilib, xalqımızın milli sərvəti hesab edilən dahi şəxsiyyətin çoxşaxəli və zəngin dövlətçilik irsinin ölkəmizin etibarlı gələcəyinin təminatında əvəzolunmaz rolundan danışılıb.

**6. MDU və Qazi Universiteti Türkiyə Cümhuriyyətinin 100 illiyini qeyd edib.**

2023-cü ilin oktyabrın 29-da Mingəçevir Dövlət Universiteti (MDU) və Türkiyənin Qazi Universiteti arasında işbirliyi çərçivəsində Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü və 29 Oktyabr Cümhuriyyət Bayramı münasibətilə Azərbaycan-Türkiyə qardaşlığı paneli keçirilib. Paneldə MDU əməkdaşlarından Esmira Cəfərova "Türkçülük şövqünün parlaq siması: Atatürk", Asim Məmmədov "Milli mücadilə dövründə Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri", Qazi Universitetinin əməkdaşlarından Ayşegül Altınova Şahin "Cümhuriyyətin qazancları" və Mehmet Akif Bal "Qarşılıqlı yardım nümunəsi – Qafqaz İslam Ordusu" mövzusunda məruzələrlə çıxış ediblər.

**7. MDU-da akademik Ziya Bünyadovun 100 illik yubileyi qeyd edilib.**

2023-cü il dekabrın 21-də Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, görkəmli tarixçi və şərqşünas alim, tanınmış ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun 100 illik yubileyinə həsr olunan dəyirmi masa keçirilib. Tədbirin açılışında çıxış edən Humanitar fənlər kafedrasının dosenti Nizami Zeynalov və müdiri Esmira Cəfərova akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına diqqəti çəkərək görkəmli tarixçi və şərqşünas alimin ölkəmizdə tarix elminin inkişafına dəyərli töhfələr verdiyini vurğulayıb, onun vətənpərvər ziyalı mövqeyindən bəhs ediblər. Sonra AMEA-nın Tarix İnstitutunun "Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və

tarixşünaslıq” şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor Şahin Fərzəliyevin video formatda çıxışı dinlənilib. Akademiklə bağlı xatirələrindən bəhs edən Ş.Fərzəliyev Ziya Bünyadovun keçdiyi zəngin elmi yaradıcılıq yolundan, ölkədə elmi məktəb formalaşdıraraq şərqşünaslıq və tarix elmlərinin inkişafına göstərdiyi xidmətlərdən danışıb.

Dəyirmi masa MDU-nun “Tarix müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələri Mehriban Qarayeva, Nərgiz Rəsulzadə, Səidə Quliyeva, Gülmirə Kazımova, Sübhan Camalov, İlahə İbrahimova, Heydər Qafarlı, Tural Nağızadə və Vəfa Məmmədovanın çıxışları ilə davam edib. Çıxışlarda tələbələr akademik Ziya Bünyadovun həyatı, elmi fəaliyyəti, türkoloji yaradıcılığı, tarixi saxtalaşdırmalara qarşı mübarizəsi və ulu öndər Heydər Əliyevin görkəmli alimlə bağlı fikirlərindən bəhs ediblər.

**8. MDU-da 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar elmi konfrans keçirilib**

2024-cü il yanvarın 19-da Mingəçevir Dövlət Universitetində Ümumxalq Hüzn Gününə həsr olunmuş “20 Yanvar: Azərbaycan tarixinin şərəf və qəhrəmanlıq səhifəsi” mövzusunda elmi konfrans keçirilib. Konfransda MDU-nun bir qrup akademik-inzibati heyət üzvləri, professor və müəllimləri, tələbə və magistrantları iştirak edib. 34 il öncə baş verən qanlı faciənin mahiyyəti, onu doğuran səbəblər, həmin vaxt ölkədə yaşanan xaos, xalqın apardığı azadlıq mübarizəsi, Qarabağ zəfəri barədə məlumat verilib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakıda baş verən qanlı qətliamı, onun dəhşətli nəticələrini, yüzlərlə günahsız insanın güllələbaran edildiyi diqqətə çəkilərək 20 Yanvar faciəsini 2020-ci ildə əldə olunan Zəfər yolunun başlanğıcı kimi qiymətləndirildi. Sonra 20 Yanvar faciəsinə həsr olunmuş video-çarx nümayiş etdirilib və proqrama uyğun olaraq məruzələr dinlənilib. Kafedranın müəllimlərindən Leyla Babayeva “20 Yanvar faciəsi: Səbəb, nəticə və tarixi dərs”, Hüseyn Əsgərov “20 yanvar faciəsinin hüquqi-siyasi aspektləri”, Jalə Qasımova “20 Yanvar faciəsi və beynəlxalq mətbuatda”, Ceyran Vəliyeva “Qanlı 20 Yanvar bədii ədəbiyyatımızda” və Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzinin koordinatoru Minayə Hüseynova “20 Yanvar hadisələri və Azərbaycan gəncliyi” mövzularında çıxış ediblər.

**9. Mingəçevir Dövlət Universitetində 20 Yanvar faciəsinə həsr olunmuş mühazirə keçirilib**

2024-cü il yanvarın 19-da Mingəçevir Dövlət Universitetində Təhsil fakültəsinin təşkilatçılığı ilə Ümumxalq Hüzn Gününə həsr olunmuş “20 Yanvar Azərbaycan xalqının milli qürur və şərəf tarixidir” mövzusunda mühazirə keçirilib. Mühazirədə MDU-nun professor-müəllim heyəti üzvləri, tələbə və magistrantlar iştirak edib. Əvvəlcə, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan MDU-nun Təhsil fakültəsinin dekanı Nizami Zeynalov diqqətə çatdırıb ki, 34 il öncə müstəqil dövlətçilik tariximizin acılı, lakin şərəfli günləri yaşanıb. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra həmin hadisəyə hüquqi-siyasi qiymət verildiyini diqqətə çatdıran dekan 20 Yanvar şəhidlərinin xatirəsinin hər birimizin qəlbində əbədi yaşayacağını vurğulayıb. Daha sonra tədbirin proqramına uyğun olaraq MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusifova məruzə ilə çıxış edib. Məruzədə qanlı Yanvar hadisəsinin səbəbləri, tarixi kökləri, faciəvi nəticələri barədə məlumat verilib. Sonda mövzu ilə bağlı müzakirələr aparılıb.

10. **MDU-da Xocalı Soyqırımının 32-ci indönümünə həsr olunan dəyirmi masa keçirilib**

2024-cü il fevralın 26-da Mingəçevir Dövlət Universitetində Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunan “Böyük Qayıdışın yeni ünvanı: Xocalı!” mövzusunda dəyirmi masa keçirilib. Universitetin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən dəyirmi masada MDU-nun bir qrup professor-müəllimləri, Təhsil fakültəsinin tələbə və magistrantlar iştirak edib. Öncə, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhraman şəhidlərimiz və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Açılış nitqi ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova hər zaman Xocalı soyqırımı acısını ürəklərimizdə hiss etdiyimizi, faciə qurbanlarını dərin ehtiramla yad etdiyimizi diqqətə çatdırıb. Bu günün gənclərini vətənpərvər ruhla yetişdirməli, yeni nəslə bu tarixi doğru şəkildə təqdim etməli olduğumuzu və onlara vətən sevgisinin aşılanmasının önəmli olduğunu bildirən E.Cəfərova müəllimlik ixtisaslarında oxuyan tələbələrin də üzərinə vacib məsuliyyətlərin düşdüyünü qeyd edib. Açılış nitqindən sonra Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etidirilib. MDU-nun Təhsil fakültəsinin tələbələrindən Vəfa Məmmədova “Xocalı türkün yurdudur, türkün qürurudur”, Gülnar Abdullayeva “Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir”, Afaq Nəsibova “Xocalı: bir şəhərin üçüncü soyqırımı”, Şəhriyar Yusibova “Xocalı faciəsi əsl siyasi-hüquqi qiymətini ulu öndər Heydər Əliyevin sayəsində aldı”, İlahə İbrahimova “Rəsmlərdən haray çəkən Xocalı”, Gülmirə Kazımova “Xocalı soyqırımının tanınması beynəlxalq siyasətdə ədalət, humanizm prinsiplərinə sadiqlik göstəricisidir”, Mehriban Qarayeva “Xocalıya ədalət kompaniyası Heydər Əliyev Fondunun prioriteti kimi”, Ayşən Abdullayeva “Xocalı faciəsi Azərbaycan təsviri sənətində”, Nurlana Rasulova “Xocalı faciəsi: bu qan yerdə qalmadı, qisası alındı” və Nurlana Mahmudova “Azərbaycan dövlətinin prioritet məsələsi: Xocalıya, Qarabağa “Böyük Qayıdış” mövzularında məruzələrlə çıxış ediblər. Təqdim olunan məruzələr maraqla qarşılanıb.

11. **MDU-da elmi konfrans: “Xocalı faciəsi: bu qan yerdə qalmadı”**

Mingəçevir Dövlət Universitetində Xocalı soyıqırımının 32-ci ildönümünə həsr olunmuş “Xocalı faciəsi: bu qan yerdə qalmadı” mövzusunda elmi konfrans keçirilib. Konfrans soyqırım zamanı həlak olanların və torpaqlarımızın bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Konfransda qeyd edildi ki, xalqımız hər il Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib. 44 günlük Vətən müharibəsində və 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda aparılan “antiterror əməliyyatları”nda torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş qəhrəmanlarımızın, həmçinin Xocalı faciəsi qurbanlarının qisası alındı, soydaşlarımızın qanı yerdə qalmadı. Artıq xalqımızın başı ucadır. Mövzu ilə bağlı videoçarxın nümayiş olunub. Sonra, konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib. MDU-nun əməkdaşlarından Ayna Babazadə “Soyqırım – sosial-kulturoloji anlayış kimi”, Asim Məmmədov “Ermənilərin tarixi torpaqlarımızda törətdiyi soyqırımlar qan yaddaşımızdır”, Fəxriyyə İsayeva “Azərbaycanın əfsanə və rəvayətlərində soyqırım və milli yaradılış məsələsi” və Gülər Əjdərzadə “Böyük Qayıdışın yeni ünvanı – Xocalı!” mövzusunda məruzə ilə çıxış ediblər.

12. **MDU-da Xocalı Soyqırımının 32-ci ildönümünə həsr olunmuş mühazirə keçirilib**

2024-cü il fevralın 22-də Mingəçevir Dövlət Universitetində Xocalı Soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Susmayacaq bir haray: Xocalı harayı" mövzusunda mühazirə keçirilib. Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirdə MDU-nun Təhsil fakültəsinin tələbə və magistrantları iştirak edib. Öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Xocalı Soyqırımına həsr olunmuş video-çarx nümayiş etdirilib. Mühazirəni giriş sözü ilə açan MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova Xocalı soyqırımı qurbanlarını dərin hüzn və hörmətlə yad edərək onlara Allahdan rəhmət diləyib. Keçən illərdən fərqli olaraq artıq Xocalı soyqırımını Xocalı ilə birlikdə anıldığını diqqətə çatdıran kafedra müdiri başıuca, qalib xalq kimi günahsız qurbanların qisasının alınması qürurunu yaşadığımızı qeyd edib. Ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə gəlişindən sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verdiyini bildirən E.Cəfərova onun bu addımının ermənilərin törətdiyi insanlıq əleyhinə cinayət və terror aktlarını dünyaya tanıtmağa bir önəm olduğunu vurğulayıb. Sonra, MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov mühazirə ilə çıxış edib. Çıxış zamanı tələbələrə Xocalı şəhəri haqqında, baş vermiş soyqırımın mahiyyəti və xarakteristikası, 1967-ci ildə baş verən erməni faktorunun yalan və gerçək tərəfləri, Xocalı soyqırımına siyasi müstəvidə verilən qiymət, işğalın strateji və ideoloji faktorları, şanlı zəfərdən sonra Qarabağda aparılan quruculuq işləri, Xocalının bu günü, orada aparılan quruculuq və çiçəklənmə işləri və gələcək perspektivləri haqqında məlumat verilib, mənfur düşmənə və onun çirkin əməllərinə qarşı daim ayıq-sayıq olmalarının gərəkdiyini bildirilib.

13. **MDU-da "Beynəlxalq Ana dili Günü"nə həsr olunmuş elmi seminar keçirilib**

2024-cü il fevralın 21-də Mingəçevir Dövlət Universitetində (MDU) "Beynəlxalq Ana Dili Günü"nə həsr olunmuş "Ana dilimiz: millətimizin varlığı və qürur mənbəyimiz" mövzusunda elmi seminar keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən seminarda universitetin bir qrup professor-müəllim heyəti, tələbə və magistrantlar iştirak edib. Tədbiri giriş sözü ilə açan Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova "Beynəlxalq Ana Dili Günü" münasibətilə iştirakçıları təbrik edib, beynəlxalq səviyyədə qeyd edilən bu günün əhəmiyyətindən söhbət açıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafında göstərdiyi misilsiz xidmətlərdən bəhs edən kafedra müdiri hazırda ana dilimizin qorunması və zənginləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsinin dövlətin daim diqqət mərkəzində olduğunu bildirib. Humanitar fənlər kafedrasının əməkdaşlarından Pərvin Hüseynova "Dilimiz xalqımızın milli sərvətidir", Səadət Ağakişiyeva "Ümummilli Lider Heydər Əliyev və dil siyasətinin uğurları", Rahilə Məmmədova "Dil milli ruhun daşıyıcısı kimi" və Çinarə Yolçubəyli "Ağamusa Axundov və Azərbaycan dilçiliyi" mövzusunda məruzələrlə çıxış ediblər. Təqdim edilən məruzələr iştirakçılar tərəfindən maraqla qarşılanıb, mövzu çərçivəsində müzakirələr aparılıb.

14. **MDU-da 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş bədii gecə keçirilib**

Mingəçevir Dövlət Universitetinin Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi və Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Bir günün tarixi" mövzusunda bədii gecə keçirilib. Universitetin akt zalında keçirilən tədbirdə MDU-nun bir qrup əməkdaşı, tələbə və magistrantlar iştirak edib. Öncə

soyqırım qurbanlarının və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı hazırladığı qısametrajlı film nümayiş olunub. Film nümayişindən sonra MDU-nun Humanitar fənlər kafedrasının müəllimi Leyla Babayeva "31 Mart- Tarixi yaddaşımızdan silinməyən soyqırım" mövzusunda məruzə ilə çıxış edib. Çıxış zamanı azərbaycanlılara qarşı törədilmiş dəhşətli hadisənin günahkarları, xalqımızın həmrəy olmasında zəmin yaradan faktorlar, gerçəklərin üzə çıxarılması və soyıqırıma hüquqi qiymətin verilməsi barədə tədbir iştirakçılarına məlumat verilib.

**15. MDU-da 31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi konfrans keçirilib.**

2024-cü ilin 29 mart tarixində Mingəçevir Dövlət Universitetində 31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "31 Mart Soyqırımı: Erməni vəhşiliyi haqqında tarixi həqiqətlər" mövzusunda elmi konfrans keçirilib. Öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra 31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib. Konfransda ermənilərin əsrlər boyu xalqımıza qarşı törətdiyi vəhşiliklər, tarixi faktları saxtalaşdırmaları və xislətləri ilə seçildikləri bildirilib. Bu soyqırım hadisəsinə hüquqi qiymətin verilməsindən bəhs edən rektor ermənilərin xalqımıza qarşı həyata keçirdiyi qətliamın faktlarla gələcək nəsillərə ötürülməsinin vacibliyindən söhbət açdı. MDU-nun dosenti Nizami Zeynalov "31 Mart Soyqırımı: erməni vəhşiliyinin unudulmayacaq qanlı nümunəsi", müəllimlərdən Vüsalə Mövlayeva "31 Mart – azərbaycanlıların soyqırımı tarix dərslərində" və Səadət Ağakişiyeva "Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatımızda" mövzularında məruzələrlə çıxış ediblər.

**16. MDU-da 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş mühazirə keçirilib**

2024-cü ilin martın 27-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Azərbaycan xalqının tarixi yaddaşından silinməyən soyqırım" mövzusunda mühazirə keçirilib. Mühazirəni giriş sözü ilə açan MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova 1918-ci ildə Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrdən, tarix boyu ermənilərin öz havadarlarına söykənərək azərbaycanlılara qarşı təcavüzkar siyasət yeritdiklərindən, 1998-ci ildə Ümummilli lider Heydər Əliyev tərəfindən bu hadisələrə hüquqi qiymət verilməsindən bəhs edib və bildirib ki, bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasət nəticəsində Azərbaycanın haqq səsi artıq dünya ictimaiyyəti tərəfindən qəbul edilir. Mövzu ilə əlaqədar videoçarx nümayiş olunduqdan sonra MDU-nun Humanitar fənlər kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirovanın mühazirəsi dinlənilib. Mühazirəçi 1918-ci il 31 Mart Soyqırımının ermənilərin xalqımıza qarşı həyata keçirdiyi böyükmiqyaslı terror aktlarından biri kimi tarixə yazıldığını söyləyib. O, ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların Soyqırımı Haqqında" 26 mart 1998-ci il tarixli fərmanı ilə xalqımıza qarşı törədilmiş ağır cinayətlərə hüquqi-siyasi qiymət verildiyini, bu gün isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin

olunması, aparıcı dünya dövlətləri və nüfuzlu beynəlxalq dairələr tərəfindən ölkəmizin ədalətli mövqeyinin etiraf olunması və müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldüyünü diqqətə çatdırıb.

**17. MDU-da tərəfdaş universitetlərlə birlikdə Çanaqqala Zəfərinin ildönümü qeyd edildi**

2024-cü il martın 18-də Mingəçevir Dövlət Universiteti, Türkiyənin Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti və Kayseri Universitetinin birgə təşkilatçılığı ilə Çanaqqala Zəfərinin 109-cu ildönümü və Şəhidləri Anma Gününə həsr olunan panel keçirilib. Onlayn formatda təşkil olunan paneldə təşkilatçı universitetlərin akademik-inzibati heyət üzvləri, tələbələr, magistrantlar və doktorantlar iştirak edib. Tədbirin açılışında çıxış edən AHBVU Turizm fakültəsinin dekanı, professor İrfan Yazıcıoğlu və MDU rektorunun müşaviri Hamiz Mahmudov türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış Çanaqqala Zəfərinin ildönümü münasibətilə təbriklərini çatdırıblar. Açılış nitqindən sonra H.Mahmudovun moderatorluğu ilə panel çıxışlara başlanılıb. Kayseri Universitetinin prorektoru, professor Zeki Tekin "Çanaqqala Zəfəri Türk Dünyasının qəhrəmanlıq və fədakarlıq dastanıdır", Qazi Universitetinin dosenti Sinan Demirtürk "Çanaqqala Zəfərinin Türk və İslam Dünyasına təsirləri", MDU-nun dosenti Esmira Cəfərova "Çanaqqala Zəfəri: Türk tarixinin şanlı səhifəsi", AHBVU-nün dosenti Nasrullah Uzman "Çanaqqala Zəfəri və Azərbaycan türkləri" və MDU-nun dosenti Asim Məmmədov "Çanaqqala Zəfərindən Qarabağ Zəfərinə: Azərbaycan-Türkiyə qardaşlığı" mövzularında çıxış ediblər.

**18. MDU-da Elm Gününə həsr olunmuş doktorant, dissertant və gənc tədqiqatçıların elmi seminarı keçirilib.**

2024-cü il martın 14-də Mingəçevir Dövlət Universitetində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Elm Günü"nə həsr olunan doktorant, dissertant və gənc tədqiqatçıların elmi seminarı keçirilib. Seminarın açılışında MDU-nun Elm və innovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev çıxış edərək seminarın aktuallığına diqqət çəkib. O, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladaraq Azərbaycanda ekoloji tarazlığın və ətraf mühitin qorunması, o cümlədən iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində milli, regional, qlobal səviyyədə aparılan işlərə dövlətimizin dəstəyi və töhfəsindən söz açıb. Sonra proqrama uyğun olaraq məruzələr dinlənilib. MDU-nun müəllimlərindən Könül Aydın "Gənc nəslin ekoloji tərbiyəsində məktəbin rolu", Ülviyyə Məmmədova "Dil bacarıqlarının inkişaf etməsində fərdi xüsusiyyətlərin nəzərə alınması", Azad Mirzəbəyov "Ekoloji şüurun artırılması üçün sosial pedaqoji metodlar", Babək Hüsüyev "Təbiəti mühafizənin iqtisadi faydaları: təbiəti mühafizə və davamlı inkişaf arasında əlaqə", Nərmin Əliyeva "Qarabağın yaşıl enerji potensialı", Səadət Yusibova "Azərbaycanda turizm təhsili sistemi və sektorun turizm təhsilindən gözləntiləri", Habil İsmayılzadə "Yaşıl dünya naminə yaşıl nəqliyyat", Leyla Əhmədova "Mingəçevir su anbarının şimal-şərq hissəsindəki bərk tullantıların çeşidliliyi və kəmiyyət qiymətləndirilməsi" və Məryəm Əsədova "Dayanıqlı ağıllı şəhərlər üçün yaşıl blokçeyn texnologiyası" mövzusunda məruzə ilə çıxış ediblər.

**19. MDU-da "Sazlı, sözlü kəlağayı günləri" adlı ədəbi-bədii tədbir keçirilib**

Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrası və "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşkilatçılığı ilə"Yaşıl dünya naminə həmrəylik ili"

çərçivəsində Azərbaycan kəlağayısının YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə “Sazlı, sözlü kəlağayı günləri” adlı ədəbi-bədii tədbir keçirilib. Giriş sözünü Ümummilli lider Heydər Əliyevin “Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır” sözləri ilə başlayan MDU-nun Humanitar fənlər kafedrasının müdiri dosent Esmira Cəfərova kəlağayının Azərbaycanın milli-mənəvi dəyərlərində yeri, tarixi, istehsal ənənələri, naxış növləri haqqında məlumat verib. Sonra, tədbirin proqramına uyğun olaraq “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı “Anam-Kəlağayıdı, Kəlağayı-anam…”, “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günay Rzayeva “Basqal” kəlağayı sənəti”, MDU-nun müəllimlərindən Günel Yunusova “Milli-maddi sərvətimiz: Kəlağayı” və Səadət Ağakişiyeva “Kəlağayı sənətinin zənginliyi və fəlsəfəsi elmi-bədii əsərlərdə” mövzusunda məruzə ilə çıxış ediblər. “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin sədri G.E.Tomarlı müəllifi olduğu kitabları MDU-nun kitabxana fonduna hədiyyə edib.

**20. MDU-da akademik Zərifə xanım Əliyevanın doğum günü qeyd olunub.**

2024-cü ilin 25 aprelində Mingəçevir Dövlət Universitetində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunan “Azərbaycan xalqının qürurla andığı görkəmli alim, dəyərli ziyalı, fədakar ana: Zərifə xanım Əliyeva” mövzusunda elmi konfrans keçirilib. Tədbiri açan MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova mövzu ilə bağlı çıxış edərək, Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında göstərdiyi əvəzsiz xidmətlərdən bəhs edib. Bildirib ki, görkəmli alim 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi kimi tarixə düşüb. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlər və həkim-oftalmoloqlar nəsli yetişib. Apardığı elmi tədqiqatların sosial əhəmiyyəti, özünün ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilib və 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının akademiki seçilib. Oftalmoloq-alim xidmətlərinə görə orden və medallarla təltif olunub, Azərbaycanın “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. E.Cəfərova çıxışının sonunda Zərifə Əliyevanın həyat və yaradıcılıq fəaliyyətinin müasir gənclərə bir örnək olduğunu vurğulayıb. MDU-nun dosenti, filologiya elmləri doktoru Flora Namazova “Akademikin parlaq və unudulmaz obrazı”, MDU-nun baş müəllimləri, f.ü.f.d. Səadət Ağakişiyeva, “İki prezidentin həyatına nur saçan zərif ziyalı qadın – Zərifə Əliyeva”, f.ü.f.d. Maarifə Manafova “İnsanlara işıqlı həyat bəxş etmiş görkəmli alim”, f.ü.f.d. Ayna Babazadə “Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi – Zərifə xanım Əliyeva” adlı mövzularda çıxış ediblər.

**21. MDU-da Akademik Zərifə Əliyevaya həsr olunmuş mühazirə keçirilib.**

2024-cü il aprelin 25-də Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Görkəmli oftalmoloq-alim, əzəmətli ana, unudulmaz şəxsiyyət: Zərifə Əliyeva” mövzusunda mühazirə keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova çıxış edərək, ilk növbədə görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat yoldaşı və Azərbaycan xalqına İlham Əliyev kimi müzəffər lider bəxş edən bir ana olan Zərifə xanımın yüksək insani

xüsusiyyətləri, təvazökarlığı, xeyirxahlığından məmnunluqla söz açırıq, onun hər zaman sonsuz hörmət və məhəbbətlə xatırlandığını bildirib. Kafedra müdiri Akademik Zərifə Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçdiyini, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verdiyini qeyd edib. O, alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərlərinin həmişə təqdirlə qarşılandığını diqqətə çatdırıb. Sonra proqrama uyğun olaraq Humanitar fənlər kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Günel Yunusova məruzə ilə çıxış edib. Bildirib ki, Zərifə xanım Əliyevanın çoxcəhətli fəaliyyəti ölkəmizdə hər zaman yüksək qiymətləndirilib. O, “Əməkdar elm xadimi” adına, “Qırmızı əmək bayrağı ordeni”nə layiq görülmüş, o zaman üçün əlçatmaz sayılan “Averbax” mükafatının Azərbaycana gətirilməsinin mümkünlüyünü sübut etmişdir. Gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə böyük zəhmət sərf etmiş alimin çoxsaylı məqalələri, çıxışları, kitabları, elmi monoqrafiyaları həkimlərin cəmiyyətdə şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə olduğunu qeyd edən G.Yunusova akademikin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətləri barədə ətraflı çıxış edib.

**22. Zəfərə aparan yol: Aprel döyüşləri**

2024-cü il aprelin 3-də Mingəçevir Dövlət Universitetində Aprel döyüşlərinin 8-ci ildönümü ilə əlaqədar olaraq növbəti görüş keçirilib. MDU-nun Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzinin və “Bir” Tələbə-Könüllülərinin birgə təşkilatçılığı ilə keçirilən görüşdə universitetin tələbə və magistrantları iştirak ediblər. MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusifova “Zəfərə aparan yol: Aprel döyüşləri” adlı mövzusunda çıxış edərək, Aprel döyüşlərinin dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini bütün dünyaya nümayiş etdirdiyini bildirib. Aprel döyüşlərində qazanılan qələbə Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən diplomatiyasının, uğurlu daxili və xarici siyasətinin, sərkərdə məharətinin, Ali Baş Komandanın daimi diqqət və qayğısı ilə əhatə olunan silahlı qüvvələrimizin əsgər və zabitlərinin peşəkarlığının, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması və xalqımızın ordu ilə birliyi nəticəsində mümkün olduğunu vurğulayıb. 2016-cı ilin Aprel ayında qazanılan qələbə Azərbaycan xalqının mübarizliyinin, ordumuzun gücünün-qüdrətinin təntənəsi oldu. M.Yusifova tarixin bütün dövrlərində Azərbaycan xalqına qələbələr yaşadan bütün şəhidlərin xatirəsinin daim əziz tutulduğunu və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsində hər bir şəhidin şücaətinin bir nümunə olduğunu diqqətə çatdırıb.

**23. MDU-da Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.**

2024-cü il mayın 29-da Mingəçevir Dövlət Universitetində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan “Könül mülkünün sultanı: Məhəmməd Füzuli” adlı ədəbi-bədii tədbir keçirilib. Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirdə universitetin akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak ediblər. MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova giriş sözü ilə çıxış edərək tədbirin Azərbaycan Respublikası Prezidentinin “Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” Sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində təşkil edildiyini bildirib. Ümummilli lider Heydər Əliyevin şair haqqında söylədiyi “Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir” sözlərindən sitat

gətirən E.Cəfərova Məhəmməd Füzulini Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkar kimi səciyyələndirib. Sonra MDU tələbələrinin məruzələri dinlənilib. Qənirə Hüseynova "Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyətinin iftixarıdır", Səadət Atakişiyeva "Heydər Əliyev zəkası və Füzuli dühası", Qızbəs Osmanova "Məhəmməd Füzulinin nəsr yaradıcılığı və tərcümə əsərləri", Sevinc Ramazanova "Məhəmməd Füzlinin sosial siyasi ideyaları və insan haqları", Sultan Mahmudova "Məhəmməd Füzuli və Azərbaycan ədəbiyyatında qəzəl janrı", Səkinə Adıgözəlzadə "Füzuli poeziyasının ümumdünya əhəmiyyəti", Cəmilə Bayramova "Məhəmməd Füzulinin dili" adlı mövzularda çıxış ediblər. Tədbir Humanitar fənlər kafedrasının tələbələri Hüseyn Kərimli, Günel Nəcəfova, Aygün Əliyeva və Hüseyn Cəfərovun təqdimatında bədii hissə ilə davam edib.

**24. MDU-da 28 May Müstəqillik Günü ilə əlaqədar dəyirmi masa keçirilib.**

2024-cü il mayın 27-də Mingəçevir Dövlət Universitetində 28 May Müstəqillik Gününə həsr olunmuş "Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir!" mövzusunda dəyirmi masa keçirilib. Universitetin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirdə MDU-nun Təhsil fakültəsinin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlar iştirak edib. MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova giriş sözü ilə çıxış edərək Müstəqillik Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, bu tarixi günün əhəmiyyətindən danışıb. Sonra konfransın proqramına uyğun olaraq MDU-nun "Ədəbiyyat" və "Tarix" dərnəklərinin üzvləri olan tələbələrin məruzələri dinlənilib. İlahə Əzimova "Müstəqil olmaq nədir?", Orxan Daşdəmirov "Azərbaycan xalqının tarixində müstəqillik", Qənirə Hüseynova "Çar Rusiyasının Azərbaycanda millət, vətən, azadlıq, istiqlal kəlmələrini və milli düşüncənin məhvinə gətirməsi siyasəti", Mehriban Qarayeva "Azərbaycan Xalq Cümhuriyyəti tariximizin şanlı və ibrətamiz səhifəsidir", Murad Hacızadə "Azərbaycan irsini "7 qıfıl" altında gizlətmiş 70 illik sovet dövrü", Sultan Mahmudova "Azərbaycan xalqının milli azadlıq və istiqlal mübarzəsi", Nərgiz Rəsulzadə "Xalqımızı bəlalardan hifz eləyən, onun işıqlı gələcəyini təmin edən Millət Atası Heydər Əliyev", İlahə İbrahimova "Qətiyyətli və rəşadətli sərkərdə İlham Əliyev" mövzularında çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin şanlı tarixindən, onu yaradan görkəmli şəxsiyyətlərin mübarizəsindən, 70 illik əsarətdən sonra əldə edilən müstəqillikdən, inkişaf edən Azərbaycanın qüdrətindən bəhs ediblər.

**25. MDU-da 28 May Müstəqillik Gününə həsr olunmuş elmi konfrans keçirilib**

2024-cü il mayın 27-də Mingəçevir Dövlət Universitetində 28 May Müstəqillik Gününə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" mövzusunda elmi konfrans keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova giriş sözü ilə çıxış edərək Müstəqillik Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib. O, bu əlamətdar tarixi günün Azərbaycan xalqının həyatına böyük və əhəmiyyətli hadisə kimi daxil olduğunu bildirib. E.Cəfərova şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Sonra konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib. MDU alimləri Nizami Zeynalov "Azərbaycan tarixinin parlaq səhifəsi – 28 May: müsəlman Şərqində ilk dünyəvi

demokratik dövlətin yarandığı gün", Aygün Qədirova "Müasir Azərbaycan Respublikası müstəqillik tariximizin şah əsəridir", Flora Namazova "Prezident İlham Əliyev: müstəqillik, uğur və qələbə simvolu" və Pərvin Hüseynova "Ədəbi müstəqilliyimizin təminatçısı: Müstəqillik Günü" mövzularında çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, onu yaradan görkəmli şəxsiyyətlərin mübarizəsindən, cümhuriyyət dövründə görülən mühüm işlərdən bəhs ediblər.

**26. MDU-da 28 May Müstəqillik Gününə həsr olunan mühazirə keçirilib**

Mingəçevir Dövlət Universitetində 28 May Müstəqillik Gününə həsr olunan "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" mövzusunda mühazirə keçirilib. Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova giriş sözü ilə çıxış edərək XX əsrin əvvəllərində Şərqdə ilk demokratik respublikanın Azərbaycanda yaranmasının tarixi əhəmiyyətindən danışıb, Azərbaycan Xalq Cümhuriyyətini xalqımızın şərəfli tarixinin önəmli səhifələrindən biri olduğunu vurğulayıb. Sonra MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusifova "Azərbaycan tarixinin şanlı və parlaq səhifəsi – 28 May: müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin qurulduğu gün" mövzusunda məruzə ilə çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, müstəqilliyimizin keşməkeşli yollarından, milli dövlətçiliyimizin parlaq səhifələrindən danışıb.

**27. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə şagirdlərə mühazirə oxunub**

2024-cü il 7 may tarixində Mingəçevir Dövlət Universiteti və Mingəçevir şəhər Təhsil sektorunun birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan "Xalqının taleyinə nur saçan siyasət nəhəngi: Heydər Əliyev" mövzusunda mühazirə keçirilib. Mingəçevir şəhər 16 saylı tam orta məktəbdə təşkil edilən tədbirdə MDU-nun və məktəbin müəllimləri, tələbələr və yuxarı sinif şagirdləri iştirak edib. MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusubova çıxış edərək Ulu öndərin Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə hələ sağlığında xalqımızın qəlbində öz əbədi heykəlini ucaltdığını bildirib. Güclü siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi, yüksək intellekti, əzmkarlığı və fədakarlığı, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirən Heydər Əliyevin adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdığını vurğulayıb. MDU-nun baş müəllimi İlham Məmmədov "Ümummilli lider Heydər Əliyevin şanlı həyat yolu müasir gənclik üçün nümunədir" mövzusunda məruzə edərək bildirib ki, Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirib. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan Ulu öndər bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verib və dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edibdir.

MDU-nun baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ayna Babazadə "Heydər Əliyev: Azərbaycan ədəbiyyatının ən böyük hamisi" adlı məruzə ilə çıxış edib. Vurğulayıb ki, Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik edərkən milli ədəbiyyatımızın, doğma ana dilimizin inkişafına böyük qayğı göstərib, eyni zamanda, şair və yazıçılarla tez-tez görüşərək onları milli ruh və kimliklə bağlı əsərlər yazmağa ruhlandırırdı. A.Babazadə bildirib ki, Ulu öndər hər vasitə ilə milli

ədəbiyyatımızın inkişafının qayğısına qalıb, milli kimliyin əsas təbliğatçısı kimi onun mövqeyinin güclənməsinə çalışıb. Tədbir müzakirələrlə davam edib.

**28. Mingəçevir məktəblilərinə “Dahi şəxsiyyət, uzaqgörən lider: Heydər Əliyev” mövzusunda mühazirə keçirilib**

2024-cü ilin 8 may tarixində Mingəçevir Dövlət Universiteti və Mingəçevir şəhər Təhsil sektorunun birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan “Xalqının taleyinə nur saçan siyasət nəhəngi: Heydər Əliyev” mövzusunda mühazirə keçirilib. Mingəçevir şəhər 7 saylı tam orta məktəbdə təşkil edilən tədbirdə MDU-nun və məktəbin müəllimləri, tələbələr və yuxarı sinif şagirdləri iştirak edib. 7 saylı tam orta məktəbin direktoru Anar İsmayılov çıxış edərək Heydər Əliyevin mənalı ömür yolundan bəhs edib. Ümummilli liderin müstəqilliyimizin ilk dövrlərində Azərbaycanın gələcək uğurlu inkişafının ideoloji əsaslarını dəqiq müəyyənləşdirdiyini, təhsilin inkişafına vermiş olduğu dəyərdən, dahi rəhbərin hakimiyyətdə olduğu illərdə gənclərin bütün sahələrdə sürətlə irəliləməsindən söz açıb. MDU-nun baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və xilaskarıdır”, MDU-nun müəllimi, AMEA Tarix İnstitunun doktorantı Gülər Əjdərzadə “Tarixdə və yaddaşlarda əbədi yaşayacaq şəxsiyyət” adlı məruzələrlə çıxış ediblər. Ümummilli lider Heydər Əliyevin 34 illik rəhbərliyi dövründə Azərbaycan tarixinin ən yüksək inkişaf mərhələsi olduğunu deyən məruzəçilər, müstəqil ölkəmizin bugünkü uğurlarını Heydər Əliyev strategiyasının təntənəsi kimi dəyərləndiriblər. Tədbirin davamında Azərbaycan xalqının dahi oğlu, qüdrətli dövlət xadimi və müdrik siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən “Dahi şəxsiyyət, uzaqgörən lider: Heydər Əliyev” adlı videoçarxa baxılıb. Sonra məktəblilərin ifasında dahi şəxsiyyətə həsr olunan şeirlər səsləndirilib, Ulu öndərin həyatını əks etdirən səhnəcik göstərilib, milli rəqs nümayiş etdirilib.

**29. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə növbəti mühazirə keçirilib**

2024-cü il mayın 7-də Mingəçevir Dövlət Universiteti və Mingəçevir şəhəri üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə növbəti mühazirə keçirilib. Mingəçevir şəhər Vaqif Ağakişiyev adına 12 saylı tam orta məktəbdə “Xalqının taleyinə nur saçan siyasət nəhəngi: Heydər Əliyev” mövzusunda keçirilən mühazirədə MDU-nun bir qrup əməkdaşı, tələbə və şagirdlər iştirak ediblər. Tədbiri giriş sözü ilə açan məktəbin tədris işləri üzrə direktor müavini Sevinc Behbudova ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı üçün göstərdiyi müstəsna xidmətləri, onun vətənə,millətə bağlılığı barədə məlumat verib. Daha sonra mühazirənin proqramına uyğun olaraq məruzələr dinlənilib. MDU-nun Humanitar fənlər kafedrasının müəllimi Aygün Qədirova “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və xilaskarıdır” və baş müəllimi Səadət Ağakişiyeva “Azərbaycan dilinin və ədəbiyyatının böyük hamisi: Heydər Əliyev” mövzularında məruzələrlə çıxışlar ediblər.

**30. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə mühazirələr keçirilir**

2024-cü il mayın 6-da Mingəçevir Dövlət Universiteti (MDU) və Mingəçevir şəhəri üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə silsiləvi mühazirələrə başlanılıb. Mingəçevir

şəhər N.Nərimovanov adına 1 saylı tam orta məktəbdə “Xalqının taleyinə nur saçan siyasət nəhəngi: Heydər Əliyev” mövzusunda keçirilən mühazirədə MDU-nun Humanitar fənlər kafedrasının bir qrup əməkdaşı, tələbə və şagirdlər iştirak ediblər. Mühazirəni giriş sözü ilə açan məktəbin direktor müavini Samirə Mirzəyeva nitqində Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsində belə tədbirlərin təşkilinin önəmini vurğulayıb. Açılış nitqindən sonra proqrama uyğun olaraq məruzələr dinlənilib. MDU-nun Humanitar fənlər kafedrasının dosenti Namaz Manafov  “Azərbaycan dilinin böyük hamisi: Heydər Əliyev” və baş müəllim Günel Yunusova “Heydər Əliyev irsi milli sərvətimizdir” mövzularında çıxış ediblər. İştirakçılar tərəfindən maraqla qarşılanan məruzələrdən sonra 1 saylı tam orta məktəbdə pedaqoji təcrübədə olan MDU tələbələri tərəfindən dahi şəxsiyyət Heydər Əliyevə həsr edilmiş şeirlər səsləndirilib.

**31. MDU-da “Milli Qurtuluş Günü”nə həsr edilmiş elmi konfrans keçirilib**

2024-cü il iyunun 13-də Mingəçevir Dövlət Universitetində 15 İyun- Azərbaycan xalqının “Milli Qurtuluş Günü”nə həsr edilmiş “Xalqı Qurtuluşa aparan tarixi məqam” mövzusunda elmi konfrans keçirilib. Açılış nitqi ilə MDU-nun rektor vəzifəsini müvəqqəti icra edən, tədris məsələləri üzrə prorektor Üzeyir Zeynalov çıxış edib. Ü.Zeynalov çıxışında 15 iyun Qurtuluş Gününün Azərbaycan xalqının tarixində çox mühüm bir dövrü əks etdirdiyini vurğulayıb. O, bu tarixi günün Azərbaycan xalqının böyük bəlalardan xilas olduğu bir gün olduğunu qeyd edərək, həmin dövrdə Ümummilli lider Heydər Əliyevin xalqın tələbi və təkidi ilə ikinci dəfə hakimiyyətə gəldiyini və Azərbaycan dövlətçiliyinin süqutunun qarşısını aldığını bildirib. Açılış nitqindən sonra “Milli Qurtuluş Günü”nə həsr edilmiş videoçarx nümayiş etdirilib. Daha sonra konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib. MDU-nun əməkdaşlarından Gülər Əjdərzadə “Azərbaycan dövlətçiliyinin xilası, inkişafının və tərəqqisinin başlandığı gün: 15 iyun 1993-cü il”, Aygün Qədirova “Heydər Əliyev irsindən güc alan müasir Azərbaycan”, Ayna Babazadə “Milli ədəbiyyatımızda Qurtuluş sədaları” və Pərvin Hüseynova “Qurtuluşdan başlayıb COP-29-a kimi uzanan Zəfər yolu” mövzularında məruzə ilə çıxış ediblər.

**32. MDU-da Milli Qurtuluş Gününə həsr olunuş mühazirə keçirilib**

2024-cü ilin 12 iyununda Mingəçevir Dövlət Universitetində 15 iyun “Milli Qurtuluş Günü”nə həsr edilmiş “Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi” mövzusunda  mühazirə keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova bu tarixi gün münasibətilə universitet kollektivini, tələbə və magistrantları təbrik edib. O, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan 15 İyun – Milli Qurtuluş Gününün sadə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu vurğulayıb. E.Cəfərova bu şanlı tarixi yaradan şəxsin Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyev olduğunu bildirib. Sonra proqrama uyğun olaraq MDU-nun baş müəllimi Mətanət Yusifovanın məruzəsi dinlənilib. O, çıxışında Ümummilli lider Heydər Əliyevin Azərbaycanın çətin və mürəkkəb dövründə xalqın istəyi ilə ölkə rəhbərliyinə qayıtmasından, 1993-cü ilin 15 iyun tarixində Azərbaycan dövlətinin və xalqının gələcəyini müəyyən edən yeni başlanğıcın əsasının qoyulmasından bəhs edib.Onun millətimiz və ölkəmiz üçün gördüyü əvəzolunmaz xidmətlərini qeyd edən M.Yusifova vurğulayıb ki, 31 il əvvəl əsası Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə Azərbaycan dövləti

bu gün tarixinin ən güclü və ən qüdrətli dövrünü yaşayır. Məruzədən sonra 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş videoçarx nümayiş olunub.

**33. MDU-da insan hüquq və azadlıqlarının müdafiəsinə aid seminar keçirilib**

2024-cü il iyunun 7-də Mingəçevir Dövlət Universitetində Elm və innovasiyalar şöbəsinin təşkilatçılığı ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəli təmin olunması və pozulmasının qarşısının alınması" mövzusunda elmi-praktik seminar keçirilib. Açılış nitqi ilə çıxış edən MDU-nun Elm və İnnovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev insan hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini ali məqsəd kimi qarşıya qoymuş dövlətimizin xalqın və hər bir vətəndaşın sosial rifahının yüksəldilməsi üzrə görmüş olduğu tədbirlər barədə məlumat verib. Bildirib ki, 1998-ci il iyunun 18-də Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisini məhz "insan meyarı"nın inkişaf etdirilməsində görərək, insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan Milli Dövlət Proqramını təsdiq etmişdir. Ardınca mövzu ilə əlaqədar məruzələr dinlənilib. MDU-nun hüquqşünası Polad Atayev "İnsan və vətəndaşın əsas hüquq və azadlıqları, onların növləri və müdafiəsinin səmərəli təmin edilməsi" və MDU-nin müəllimi Hüseyn Əsgərov "Hüquqi yardım almaq hüququ: anlayışı və zərurəti" adlı mövzularda çıxış ediblər.